# Əminlik

Minlərlə insana kömək edən məşğələlər silsiləsini öyrənməyə başlayırsınız. «**ƏMİNLİK**» silsiləsindən olan hər bir dərs əvvəlki dərslərlə əlaqəlidir, birlikdə isə onlar sizə Allahın istədiyi kimi imanlı həyatını yaşamağa başlamağa imkan verəcək əməli dərk etmə prinsiplərini təşkil edir.

**İsa Məsihin dərk edilməsi – qarşılıqlı münasibətlərin ən təsirli forması, qadir Allahın dəyişməz sevgisi ilə ecazkar həyatın başlanğıcıdır.**



Sonrakı dörd prinsip İsa Məsihlə yeni həyata başlamaq üçün insana nəyin mütləq lazım olduğunu bilməyi qısaca başa salır. Qısa mülahizələrlə verilmiş ruhani həqiqətlər Məsihlə əldə etdiyiniz qarşılıqlı münasibətlərinizin əminliyinə ilk addımlar hesab edilir.

1. Allah sizi sevir və Onda sizin həyatınıza dair son dərəcə gözəl niyyətlər var. O sizi ona görə yaratmışdır ki, Onu və Onun sevgisini dərk edib hiss edəsiniz.

2. Bütün insanlar günahkardır və Allahdan uzaqlaşmışdılar. Ona görə də insan nə Allahın niyyətini dərk etmək, nə də Onun sevgisini hiss etmək vəziyyətindədir.



3. Günahlarımızdan azad olmaq üçün İsa Məsih Allahdan verilmiş yeganə yoldur. Yalnız Onun vasitəsilə bizim Allahla qarşılıqlı münasibətlərimiz ola bilər, Onun sevgisini və niyyətlərini dərk edə bilərik.

4. Hər bir insan şəxsən İsa Məsihi özünün Rəbbi və Xilaskarı kimi qəbul etməlidir. Yalnız o zaman onun Allahla şəxsi qarşılıqlı münasibətləri ola bilər, Onun sevgisini və niyyətlərini dərk edə bilər.



**İsa Məsihi öz ürəyinə qəbul edən insanların çoxunda sual əmələ gəlir: “Nə üçün İsa Məsihə iman edən insan əmin ola bilər ki, o əbədiyyəti Allahın yanında keçirə bilər?”**



Bu vacib sualın cavabı Məsihdə qurulan həyatınızın əsasına xidmət edəcək. Nə üçün Allahla qarşılıqlı münasibətlərimizin olmasına əmin ola biləcəyimiz barədə Müqəddəs Kitabın nə dediyinə baxaq.

## 1 Məsihlə qarşılıqlı münasibətlərinizdə əminliyə nail olma

**Məsihə Xilaskarınız kimi ümid edəndə əmin ola bilərsiniz ki, Onunla qarşılıqlı münasibətləriniz mövcuddur, çünki siz Allah tərəfindən tamamilə bağışlanmısınız və qəbul edilmisiniz.**

*«Zira Allahın **lütfü ilə imanla xilas oldunuz** və bu, sizdən asılı deyil, Allahın ənamıdır; əməllərdən asılı deyil ki. heç kim öyünməsin» (Efeslilərə 2:8, 9)*

Bu ayələrdən üç əsas sözü, nəyin əsasında Allah tərəfindən qəbul edilməyimizi aydınlaşdıran **lütf, xilas və iman etmək** sözünü ayırd edə bilərik**.**

**Lütf:**
layiq olmadığınız iltifat,
layiq olmadığınız ənam.

*Sizcə, nə üçün Allah bizə bu qədər qiymətli ənamlar vermişdir? Nəyə görə əbədi həyatı əldə etmək və qazanmaq olmaz?*

Siz Allahla qarşılıqlı münasibətlərdə olmaq hüququna layiq deyilsiniz və onu xeyirxah əməlləriniz vasitəsilə qazana bilməzsiniz (dini ənənələrə riayət etməklə, xeyirxah əməllərlə, yoxsullara kömək etməklə və s.). Allahın bu ənamını Məsihi ürəyinizə qəbul edən zaman alırsınız.

**Xilas oldunuz:**
satın alındınız,
cəzadan azad olundunuz.

**Rom. 6:23-ü oxuyun.**
Bu ayədə deyilir ki, günahın əvəzi ölümdür (mənəvi ölüm). Məsihi qəbul etdiyiniz həmin anda O sizi ömürlük mühakimədən, günahlarınıza görə cəzadan xilas etdi.
*Nə üçün insanların çoxu əbədi həyat ənamını qəbul etməkdən imtina edir?*

**İman:**
ümid bağlamaq,
etibar etmək.

**1Pet. 3:18-i oxuyun.**

*Bu ayəyə əsaslanaraq nəyi Allaha etibar etməlisiniz?*

İman müəyyən etiqada heysiyyət və bağlılıq hesab edilmir. İman, Allaha və Onun Sözünə etibar, Allaha və Onun Sözünə ümid ifadə edən iradə aktıdır. Məsihi qəbul etmək o deməkdir ki, əbədi həyatı əldə etmək üçün öz bacarığınıza güvənməyi tərgitməli və günahlarınızın əvəzini Öz ölümü ilə ödəyən Məsihə ümid bağlamalısan.

**HAKİM SUAL**

Fərz edək ki, Allahın qarşısında dayanmısınız və O sizdən soruşur: «Nə üçün Mən səni göyə buraxmalıyam?» Bu suala necə cavab verərdiniz?

## 2 Məsihlə qarşılıqlı münasibətinizə dair beş həqiqətin başa düşülməsi

**Məsihlə qarşılıqlı münasibətlərə nail olduğunuz zaman çox qəribə şeylər baş vermişdi. Növbəti həqiqətin başa düşülməsi sizə sonrakı ruhani inkişafın böyüməsi üçün möhkəm təməlin qoyulmasına kömək edəcək.**

**1. Məsih günahlarınızı bağışladı.**

«Çünki saleh olan Məsih də qeyri-salehlər uğrunda günahlar üçün bir dəfə əzab çəkdi ki. … » (1Pet. 3:18). Siz Məsihə iman edəndə O sizə bütün keçmiş, indiki və gələcək günahlarınıza görə bağışlanma ənamı verdi.

*İndi, günahlarınızın hamısının bağışlandığını bildiyiniz zaman bunun sizin üçün nə kimi əhəmiyyəti var?*

**Yəhya 1:12-i oxuyun**

**2. Məsih sizi Allahın övladları olan ailəyə təqdim etdi.**

*Allahın övladı olmaqdan ötrü insandan nə tələb olunur?*

**Vəhy 3:20-i oxuyun**

**3. Məsih həyatınıza girdi və heç vaxt sizi tərk etməyəcək.**

*Ürəyinizin qapısını Məsihə açmısınızmı?*

*Məsih sizə münasibətdə indi haradadır? Sizin buna inamınız nəyə əsaslanır?*

**İbranilərə 13:5 və Yəhya 6:37-i oxuyun**

*Allah bizə nə vəd etdi?*

**4. Məsih sizə yeni həyat verdi.**

*Verilmiş vədləri nəzərə alaraq neçə dəfə Məsihi qəbul etmək lazımdır?*

**2Kor. 5:17-i oxuyun**
Məsihi Rəbbiniz və Xilaskarınız kimi qəbul edəndə siz yeni, ruhani həyata başlayırsınız. Ruhani böyümə prosesində Allah sizdə çoxlu yeni keyfiyyətlər yetişdirəcək.

**5. Məsih sizə əbədi həyat verdi.**

*Həyatınızda hansı yeni keyfiyyətləri əldə etmək istərdiniz?*

**1Yəhya 5:11-13-ü oxuyun**
(Ayə 11) Kim əbədi həyat mənbəyi hesab edilir?

(Ayə 12) Kim əbədi həyata malikdir?

(Ayə 13) Əbədi həyatınız varmı? Nə üçün?

Əbədi həyatı nə vaxt almısınız?

**HAKİM SUAL**

Əgər bu gün ölərsinizsə, əbədiyyəti Allahla keçirəcəyinizə nə qədər əminsiniz?

0%----------25%----------50%----------75%----------100%

**Bu lütflərin hamısı sizə Məsihdə verilmişdir. Siz onları qazana bilməzsiniz. Məsihi ürəyinizə qəbul etdiyniz zaman onları alırsınız.**

*Bu həqiqətlərdən hansının sizin üçün xüsusi əhəmiyyəti var? Nə üçün?*

1. Məsih bütün günahlarınızı bağışladı.
2. Məsih sizi Öz ailəsinə apardı, indi siz Allahın övladlarısınız.
3. Məsih həyatınıza girdi və heç vaxt sizi tərk etməyəcək.
4. Məsih sizə yeni həyat verdi.
5. Məsih sizə əbədi həyat verdi.

### 3 Məsihin həyatınıza girməsi barədəki şübhələri necə aradan qaldırmaq olar

Şübhələr, suallar və bütün mümkün emosiyalar hər bir insanın ayrılmaz hissəsi adlanır, lakin heç bir insan onları Məsihlə özünün qarşılıqlı münasibətlərində qura bilməz. **Baxmayaraq ki, həyatda hisslər vacib rol oynayır, sizin Məsihlə qarşılıqlı münasibətləriniz gündəlik dəyişən hisslərinizə yox, danılmaz həqiqətlərə, faktlara əsaslanır.** İmanlı adam Allaha, Onun Sözünə möhkəm imanla yaşayır.

Bu şəkil **fakt** (Allah və Onun Sözü), **inam** (sizin Allaha və Onun Sözünə ümid bağlamanız) və **hisslər** arasında olan qarşılıqlı əlaqəni misal gətirir.




Yanacaqla doldurulmuş avtomobil qoşma araba yaxud onsuz getmək bacarığındadır, amma avtomobili qoşmanın köməyi ilə hərəkətə gətirməyə çalışmaq faydasız olardı. **Eyni ilə belə şəkildə imanıl həyatını yaşamaqdan ötrü hisslərə güvənmək lazım deyil. Biz hisslərimizə yox, Allahın Sözünün vədinə güvənməliyik.**

Əgər sabah həyatınızda sanki Məsihin yoxluğunu hiss etsəniz, nə etmək olar? **İmanınızı Allahın sadiqliyinə və Onun Sözünün sarsılmazlığına həvalə edin.** Allahın Sözünü nə qədər çox dərk edərsinizsə, o qədər asanlıqla istənilən şübhələrə danılmaz həqiqətlərin köməyi ilə cavab tapa bilərsiniz. Hissləriniz olduğunuz vəziyyətə yox, Allahın Sözünün həqiqətinə tabe olacaq.

### Məsihlə qarşılıqlı münasibətlərin möhkəmləndirilməsi



**4** Hər gün aşağıda göstərilən siyahıdakı həqiqətlərdən birinin üzərində dərindən düşünün. Hər həqiqətin yanında göstərilən ayəni oxuyun. Allaha minnətdarlıq edin ki, bu həqiqətlər sizin üçün real əhəmiyyət kəsb etsin. Məsihdə böyüməkdən ötrü mütləq bu həqiqətləri bilmək və ona etibar etmək lazımdır.

**1-ci GÜN – Günahlarınız bağışlandı:** Ef. 1:7 və Kol. 2:13.
**2-ci GÜN – Siz indi Allahın övladlarısınız:** Yəh. 1:12,13 və 1Yəh. 3:1.
**3-cü GÜN – Məsih ürəklərinizdə yaşayır:** Vəhy 3:20 və Qal. 2:20.
**4-cü GÜN – Yeni həyat əldə etdiniz:** 2Kor. 5:17 və Ef. 2:4,5.
**5-ci GÜN – Əbədi həyata nail oldunuz:** 1Yəh. 5:11-13 və Yəh. 10:27-29.



Həftə ərzində bu həqiqətləri həyatınıza tətbiq edin, onlar da sizin üçün xüsusi əhəmiyyət kəsb edəcək. Cari həftə ərzində Məsihə imanınız barədə kiməsə danışın.



### Xülasə

**Məsihi şəxsi Xilaskarınız kimi qəbul edən zaman ən əhəmiyyətli, ən mənalı qarşılıqlı münasibətlərə nail oldunuz. Hansı hissləri keçirməyinizdən asılı olmayaraq, Allahın vədlərinə əsasən tamamilə əmin ola bilərsiniz ki, Məsih sizdə yaşayır və heç vaxt sizi tərk etməyəcək. Bu daha sonrakı ruhani inkişafınızın əsası hesab edilir.**

Növbəti dərsdə imanlı həyatı yaşamaq üçün hətta etdiyimiz cəhdlər müvəffəqiyyətsiz görünsə də, Allahı qəbul etməyin necə hiss edilməsinə baxacağıq.